Aynur CƏLİLOVA
AMEA Folklor İnstitutu, Fil.ü.f.d. dos.
E-mail: celilova1976@mail.ru

TÜRK DASTANLARINDA OVÇULUQ

SUMMARY
HUNTING IN TURKISH EPICS

Hunting is one of the ancient myths of the Turkic peoples. The influence of the ancient religions, and more often the shamanism, the primitive form of human thinking about nature and the universe are observed here. Turkish epics are rich of hunting motifs. Hunting beliefs and imaginations has moved to myths and imaginations to myths, and has passed from there to large genres of folk literature, fairy tales and epics. The epics immortalizing the Turkish hunting traditions and beliefs including Ancient Sumerian legend "Bilqamis", Book of Dede Korkut, Oghuz khagan, epic of Manas, Maday Kara, Koroghlu tell us a lot about the customs, traditions, food and clothes, entertainment and battles of the prototypes. Turkish heroism begins with hunting and ends in battle. Fighting and victory of the heroine with powerful animals, hunting skills of owls, mountain spirit or hunting god appearing in animal dresses, totem animals hunting rigs, womens gadgets, etc. reflects the encoded ideas of Turkish epics. The article provides a detailed description of hunting motifs in Turkish epics, and comparison with the legends of neighboring nations.

Keywords: Turkish epics, heroism, hunting motives, myths, traditions, folk literature

ОХОТА В ТЮРКСКИХ ДАСТАНАХ

Одним из древних убеждений у тюркских народов является охота. Здесь прослеживается первичная форма мышления человека о природе и вселенной, а также находит свое отражение влияние древних религий, в основном шаманизма. Тюркские дастаны богаты охотничьими мотивами. Охотничьи поверья и представления находят свои отражения в мифах, а оттуда переходят в сказки и дастаны, которые являются расширенными жанрами народной литературы. Широко представлена нашему вниманию тюркские охотничьи традиции, дастаны в которых сохранены поверья, обычаи и традиции прототюрков, их еда и одежда, развлечения, а также сражение с врагами, которые нашли свое отражения начиная с древнего шумерского дастана «Билгамыс», а также прослеживаем их наличие в «Китаби Деде-Горгуд», «Огуз хаган», в «Манасе», в «Мадай –Кара», «Короглы» и т.д. Геройства тюрков начинается с охоты и заканчивается в сражениях. Борьба героя с сильными животными и победа над ними, охотничье умение огузских храбрецов, явление духов гор или охотничьих богов в животном обличии, охотничьи запреты на тотемных животных, запреты, связанные с женщинами и т.д. отражает кодирование охотничьих представлений в тюркских дастанах. В статье широко представлены охотничьи мотивы в дастанах и произведены сопоставления с дастанами соседних народов.

Ключевые слова: тюркские дастаны, героический, охотничьи мотивы, миф, обычаи и традиции, народная литература.

Türk xalqlarının həyatında ən qədim və bugünə qədər ənənələri qorunub saxlanan peşələrdən biri ovçuluq olmuşdur. Türk kişisi üçün qılınc, döyüş, vuruş, cəngavərlik nə qədər doğma və əhəmiyyətlidirsə, ovçuluq da bir o qədər əhəmiyyətli, əziz məşğuliyyət növü olmuşdur. Çünki, qəhrəmanlığa gedən yol ovçu-luqdan başlayır, türk oğlu döyüşə, savaşa getməzdən qabaq gücünü ovda sınayır, ov ovlayır, quş quşlayır və gələcək həyata vəsiqə qazanır. Oğuz ərənləri döyüşə çıxmazdan qabaq gücünü ovda sınayır. Ovlamağı bacarırsa, deməli döyüşməyi, vu-

ruşmağı da bacarır. Dədə Qorqud boylarında, başqa türk dastanlarında igidlərin ov, ovçuluq bacarığına üstünlük verdiyini görürük, seçmə igidlərin hamısı ovda uğur qazanmış kişilərdir. Əski türk dövlətçilik ənənəsinə görə ovçuluğu yaxşı bilən kişilər dövlətin nəzərində olmuş, qoşun təşkilində bu adamlardan istifadə olunmuşdur. Təsadüfi deyil ki, 24 oğuz boyundan biri Avşarlar (çevik və ovlamağı sevən) olmuş və bu nəsildən tanınmış türk cəngavərləri, sərkərdələr çıxmışdır. Onlardan biri XVIII əsr türk fatehi Nadir şah Əfşar olmuşdur. Türk xalqlarının konstitusiyası sayılan "Qutadqu-bilik" əsərində Y.X.Hacib göstərir ki, dövlət elçisi (səfir) dəqiq və humanitar elmləri, xarici dilləri bilməklə yanaşı xalq oyunlarını da bilməli, o cümlədən ovçuluğu da bacarmalıdır. Ovçuluq türk fatehlərinin sevimli məşğuliyyəti olmuşdur. Sarayda ov quşlarını bəsləyən və şahı ovda müşayiət eləyən xüsusi imtiyazlı adamlar olmuşlar ki, bu vəzifə sahibləri şahın yaxın adamları sayılmışlar.

Ovçuluq ilk vaxtlarda qida əldə etmək tələbatından yaranmış kişi peşəsi olmuşdur. Zaman keçdikdə insanların zəruri tələbatı onların dini görüşləri ilə qarışmış, təbiət-heyvan-insan münasibətləri ortaya çıxmışdır. Ovçuluq insanın tanrı ilə görüşlərini özündə daşıyan müstəqil, daxili, dəyişməz qayda-qanunlar məcmusundan ibarət peşə növü olmuşdur. Ovçuluğun meydana gəlməsi insan cəmiyyətində sosial münasibətlərin formalaşmasının başlanğıcını qoymuşdur. Kənd təsərrüfatı, iqtisadi münasibətlər, pul dövriyyəsi, dövlətin meydana çıxması bilavasitə ovçuluğun meydana çıxması ilə bağlıdır.

Ov vurmaq təkcə heyvan öldürüb ətini yemək deyil; burada bir çox məsələlər şərtləndirilir: ovçuluğa başlayan adamın şəxsi keyfiyyətləri, fiziki və mənəvi təmizliyi, qabiliyyəti, bacarığı, əxlaqı, insafı, silahdan istifadə metodu, ovçuluq ənənələrinə sadiqliyi, ovlama qaydalarına əməl etməsi və s. daxildir.

Bu mövzuya 2 aspektdən yanaşmaq olar:

1. Qədim türk dastanlarında ovçuluq
2. Orta əsrlərdə yaranmış türk dastanlarda ovçuluq

Ov motiv və süjet rəngarəngliyinə görə dastanları 2 yerə bölmək məqbuldur:

1. Ovçuluq inancları üzərində köklənmiş dastanlar
2. Orta əsr ovçuluq ənənələri əsasında yaranmış dastanlar

Türk xalqlarının həyatında ovlamağın hansı mövqedə dayandığını, şumer dövründən başlamış orta əsrlərə qədər dastançılıq ənənəsində necə yer tutduğunu bilmək üçün türk dastanlarından bir neçəsini ardıcıllıqla nəzərdən keçirək.

İlk öncə, elm aləminə keçən əsrdə məlum olan, qədim türk dünyasının böyük dastanı **"Bilqamıs**"ı nəzərdən keçirək. "Bilqamıs" türk ovçuluq ənənələrini yaşadan dövrümüzə qədər gəlib çıxmış ilk türk-şumer qəhrəmanlıq dastanıdır. Qədim şumer xalqının qəhrəman və bilikli oğlu Bilqamıs (Gilqamış) haqqında olan dastan dövrümüzə gil lövhələr halında, pərakəndə şəkildə çatmışdır. Dastanda olan bir çox motivlər – yuxuya inam, dağ kultu, vəhşi ovu, ölümdən qaçma, əbədi dünya axtarışı və s. onu başqa türk dastanlarına yaxınlaşdırır. Bu da onun tək dil xüsusiyyətlərinə görə yox, həm də süjet oxşarlığına görə prototürklərə mənsub olduğunu sübut edir. Dastanda kişi gücü, üstünlüyü, kişi hakimiyyəti, qadınların fə-

lakət mənbəyi və uğursuzluq gətirməsi ovçuluq ənənələrindən gələn süjetdir. Bilqamısın dostu Enkidu vəhşi heyvanlardan (antilop və çöl eşşəyi) doğulmuş, vəhşi heyvanlarla meşədə yaşayan qəhrəmandır. Onun bədəni sıx tüklə örtülüdlür, bu da onun güclü, qüvvətli olmasının göstəricisidir. Enkidunun gücü yenilməzdir, çünki, o, vəhşi heyvanların döşündən süd əmmişdir. Dastan süjetlərində vəhşi heyvanın döşündən süd əmmək onun gələcəkdə məğlubedilməz olmasına işarə olaraq verilir. "Kitabi-Dədə Qorqud" dastanında Basat bu xarakterdə verilmiş qəhrəman obrazıdır. Aslan südü əmən Basat aslandan güc alaraq Oğuz elini Dəpəgözdən qurtarır. Vəhşi heyvanla təmas, onun qanını, südünü, ətini qəbul etməklə həmin heyvanın gücünü mənimsədiyinə inanılırdı. Məs: Altay ovçuları ovladığı heyvanın böyrəyini, ciyərini, Azərbaycan və Qafqaz ovçuları heyvanın ürəyini yeyirdilər. "Manas" dastanında Manasın anası Çıyırdı Manasa hamiləykən aslan ürəyini və ciyərini yeyir və bu qidadan güc alan Manas qırğız elini düşmənlərdən xilas edib, xalqı birləşdirir və gücləndirir (Manas: 2019, s. 20).

Vəhşi heyvandan seçilməyən Enkidu həm də onların himayəçisidir, ovçuların heyvanları ovlamasına imkan vermir. Ovçu Enkidudan yaxasını necə qurtarmağı düşünür. O, Enkidunun qüvvətli olduğunu bilməmiş deyil, eyni zamanda güclü ov hamisinə qalib gəlmək üçün ağsaqqal məsləhətinə ehtiyac duyur. Ovçu atasının məsləhəti ilə Bilqamısı axtarıb tapır və Bilqamıs ona ehtiraslı qadın Şamxatı Enkidunun yanına aparmasını söyləyir. Ovçu Şamxatı Enkidunun olduğu meşəyə aparır və Şamxatın gözəlliyinə uyan Enkidu onunla eyş-işrətə dalır. Bundan sonra vəhşilər Enkidudan uzaqlaşır, tənha qalan Enkidu Şamxatla Uruka insanların yanına gəlir. Bu süjet ovçuluq inamlarında yer alan qadının uğursuzluq rəmzi daşıması ilə əlaqədardır. Türk xalqlarının ov təsəvvürlərində qadın yer almır, ovçular ovdan əvvəl qadına yaxınlaşmaz, onunla yatmaz, danışmaz, gözünə görünməz. Ovçunun nə özünə, nə də silahına qadın toxuna bilməz. "Bilqamıs" dastanında bu inancın süjetə daxil edilməsi əski türk ovçuluq inanclarını əks etdirir.

Qəhrəmanlıq dastanlarında vəhşi heyvanların ovlanması və ya vəhşi heyvanlarla döyüşüb onlara qalib gəlinməsi epizodları ilə rastlaşırıq. Bu da həmçinin, yuxarıda deyildiyi kimi, qəhrəmanın fövqəladə gücünü nümayiş etdirmək məqsədi daşıyırdı. "KDQ" və "Bilqamıs" dastanında belə süjetlərin verilməsi bu iki dastanı bir-birinə yaxınlaşdırır. "KDQ" dan bildiyimiz kimi, Dirsə xanın adsız oğlu buğanı yıxır, Buğac adını alır, Qanlı Qoca oğlu Qanturalı buğanı, aslanı və buğranı basır, sarı donlu Selcanı alır (Az. əd. incil: 1987, s.110). "Bilqamıs" da isə Bilqamısla Enkidu meşə hamisi qorxunc Humbabanı, tanrı Anunun düzəltdiyi nəhəng, güclü buğanı məhv edirlər. Meşə hamisini öldürdüyünə görə tanrılar bu iki qəhrəmanı cəzalandırmaq qərarına gəlir: Enkidu ölür, Bilqamıs isə ölümdən yaxa qurtarmaq üçün min bir əziyyətdən, dəhşətli yollardan keçib əbədi həyat çiçəyini əldə edir, lakin nə özünə, nə də xalqına həmin çiçəyi iyləyib ölümsüz olmaq qismət olmur (Qəd. Şərq. əd: 1999, s.169). Burada meşə hamisi qorxunc şər ruh kimi verilir və qəhrəmanlar şəri aradan götürməklə dünyada xeyrin qalib gələcəyinə inanırlar, lakin şərin qurbanı olurlar.

Ovçuluq miflərində meşə hamisi meşədə yaşayan canlıların hamisi hesab olunur; onlar çox vaxt şər ruhları təmsil edir – onların öldürülməsi yasaqdır. Humbaba meşədəki sidr ağaclarını qoruyan nəhəng varlıqdır, onun heyvanları qoruması deyilmir, lakin bununla belə tanrıların himayəsi altındadır.

Ovçuluq rituallarında ov tanrısının şərəfinə un və un məmulatlarından qurban verməsi məlumdur, bu, ruzi-bərəkət anlamını daşıyırdı. "Bilqamıs" dastanında da tanrı Şamaşın şərəfinə şah anası Ninsun qurban verir və Humbabanı ovlamaq üçün ona dua edir:

Əlini göyə tutdu, un qurbanı qoydu o,
Şamaşın şərəfinə (Qəd. Şərq. əd: 1999, s.125).

Şamaş burada günəş tanrısıdır. Günəş tanrısı ovçuluqda əsas tanrı sayılır, ovçular ovdan qabaq ona dua etmiş, ovdan sonra isə ovlanan heyvanın iç orqanını günəşə qurban verərmişlər. Günəş haqqında türk xalqlarında qeydə alınmış miflər, əfsanələr olduqca rəngarəngdir. Hətta günəşdəki ləkələr haqqında da Sibir xalqlarında əfsanələr yayılmışdır. İnanca görə günəşdəki ləkələr qarlı havalarda ov tapa bilməyən ovçulara kömək edən göyə uçmuş şamanlardır (Rzayev, AMEA Nax. Böl. Xəbərlər: 2006, s.72). Azərbaycan ərazilərindən (Zəngəzur, Urud, Naxçıvan, Borçalı) tapılmış qəbir daşlarında, qoyun, qoç heykəllər üzərində, Qobustan qayalarında ov ovlayan ovçuların başı üstündə günəş və ya svastika şəkilləri təsvir olunmuşdur. Bunlar şumer ovçuluq mədəniyyətinin qalıntısı kimi Azərbaycan abidələrində bugünə qədər qalmaqdadır. Enkidu tanrı Anunun düzəltdiyi buğanı ovlayıb onun ürəyini Şamaşa qurban verir. Ov ürəyinin ov tanrısına qurban verilməsi ayini həm Qafqaz, həm də Sibir türklərinin ovçuluq rituallarında qeydə alınmışdır.

Dastanda həmçinin maral, əlik kultu ilə rastlaşırıq. Yenilməz Enkidu antilopla çöl eşşəyindən doğulmuşdur. Antilop (əlik) türk mifologiyasında dünyanın, yaradılışın başlanğıcı hesab olunur. Maral, əlik, miflərdə heyvanların hamisi, başçısı, yol göstəräni və ov tanrısı rolunda görünür. Enkidunun güclü, qüvvətli doğulması və vəhşi heyvanların dostu, himayəçisi olması anasının əlik olması ilə bağlıdır. Məhz, ana əcdadına bağlılıq, anadan güc alma, ilkin başlanğıcın ana-qadından doğması ideyası dünya mifologiyasında qəbul edilmiş nəzəriyyədir. Tanrıçadan və pəridən doğulan oğul qeyri-adi güclü, bacarıqlı olur, Enkidu belə qəhrəmanlardandır. Başqa xalqların mifologiyasında da biz bunu müşahidə edirik. Məs: yunanlarda Axilles, təpəgöz, gürcülərdə Amiran və s. Kitabi-Dədə Qorqudda Dəpəgöz obrazını da bu sıraya daxil etmək olar, çünki onun da anası (pəri) mifoloji varlıqdır. Lakin Dəpəgöz güclü olsa da, insan kimi yox, heyvan+insan, şeytani varlıqdır. Təpəgöz obrazları məkan və mənşə etibarilə su tanrısına bağlanır. Türk Dəpəgözü ilə yunan təpəgözü bu mənada birləşir. Dəpəgöz suda çimən quş cildində görünən pəri qızının törəməsidir, yunanlarda da dəniz tanrısı Poseydonun oğludur. Türk-tatar mifologyasında su anası, su babası ov (dənizdəki canlıların) hamilərindən hesab olunur və şər ruh kimi təqdim olunur (Коблов). Tanrı törəməsini məğlub etmək çətindir, belə güclü varlıqları yalnız tanrı tərəfindən seçilmiş qəhrəmanlar və ya tanrının özü məhv edir. Amiran və Enkidi tanrının qəzəbinə düçar olub ölürlər,

Dəpəgözü isə aslan südü əmmiş Basat məhv edir, yunan dastanında Odissey bu missiyanı yerinə yetirir.

Əski ovçuluq miflərində ov heyvanının dərisinə bürünmə motivi ilə rastlaşırıq. Heyvan dərisinə bürünmə həmin heyvanın ruhuna girmə, onun gücünü mənimsəmə anlamına gəlirdi. Məs: Ovçu Pirimlə bağlı miflərdə Ovçu Pirimin oğlunun və ya hansısa başqa bir ovçunun vəhşi heyvanın dərisinə bürünüb yatması və ovçu yoldaşının onu səhvən vurması təsvir olunur (AFA Zəngəzur f: 2005, s.44, Şəki f. örn. II c: 2014, s.107). "Bilqamıs" dastanında da Bilqamısın ovladığı heyvanların dərisinə bürünməsi göstərilir:

Ayı, kaftar ovladım, vurdum neçə-neçə şir,
Ovun ətini yedim, büründüm dərisinə... (Qəd. Şərq. əd: 1999, s.158).

Yalnız totem və güclü heyvanların dərisinə bürünürlər. Heyvan dərisinə bürünmə motivini Qobustan qaya rəsmlərində də görə bilirik. Tədqiqatçı Rzayev bunu "gizləncək" adlandırır, yəni heyvanlara yaxınlaşmaq üçün onların dərisinə bürünmək üsulu hesab edir (Ağasıoğlu: 2014, s.124). Amma mif və dastanlara nəzər yetirsək heyvan dərisinə bürünməyin heyvan olmayan yerlərdə də işlədilməsi onun başqa məqsəd daşıdığını göstərir, yəni vəhşi heyvanın dərisinə bürünmək onun gücünü mənimsəmək, ruhuna daxil olmaq deməkdir. Dastanın bir neçə yerində Bilqamısın şir dərisinə bürünməsi söylənilir. Şir, aslan zəfər, mübarizə, qüvvət simvolu hesab edilir (Çoruhlu: 2017, s.206). Aslan həm də, taxt-tac, hakimiyyət simvolu sayılırdı. Bilqamıs Urukun şahı, hakimi olduğu üçün dastanda onun obrazı şirə köçürülmüş və şir ovçusu olaraq təqdim olunmuşdur.

Xalq arasında ovla bağlı eşitdiyimiz alqış və qarğışları "Bilqamıs" dastanında da görə bilirik. Məs, burada Enkidunun ovçuya etdiyi qarğış bugünkü türk aforizmləri ilə üst-üstə düşür. Tanrı Anunun ona ölüm hökmü veridyini eşidən Enkidu onu meşədən, heyvanlardan ayıran ovçuya və onu yoldan çıxaran Şamxata lənət yağdırır, qarğış edir:

Şamaş, yalvarıram mən,
mənə qənim kəsilən
Ovçu-balıqçı insan taleyimin ucundan
Mənə imkan vermədi dostum tək şöhrətlənim
Qoy ovçu dostlarıtək şöhrət tapa bilməsin,
Qoy sənin qabağında onun payı azalsın.
Qoy qolları boşalsın ovu yaxşı olmasın.
Qoy qurduğu tələdə bir heyvan da qalmasın.
Ovçunun arzuları qoy qalsın ürəyində (Qəd. Şərq. əd: 1999, s. 140).

Buradan məlum olur ki, Şamaş həm günəş, həm də ov tanrısıdır, ovçunun ovunun uğursuz olması üçün Enkidu Şamaşa yalvarır. Dastanda Enkidu obrazı ovçuluqla daha çox bağlıdır və onunla bağlı süjetlərdə ovçuluq inanc və təsəvvürləri ustalıqla işlənmişdir.

"**Maday Qara**" dastanı ov inamlarını əks etdirən qədim Altay dastanıdır. Burada ovçuluqla bağlı süjetlərin formalaşmasında şamanizmin təsiri aydın hiss olunur. Dastanın əvvəlində qardaşı Arçutay kaanın onun yanına köçmək təklifini

rədd edən Ölönbirin ovda başına gələn əhvalat təsvir olunur. O, ov vurmaq həvəsilə Ak-tayqaya gedir. Ovçunun ilk uğursuzluğu buradan başlayır. Ölönbir ov tapmaq ümidiylə Sumer-ulan tayqa dağlarına gedir və burada qara maralla rastlaşır. O, maralı tutmağa cəhd göstərir, "7 dəfə Yerin, 6 dəfə Altayın başına fırlanır", lakin maralı vura bilmir. Ölönbir öz yurduna dönəndə ailəsinin, yurd-yuvasının quraqlıqdan yanıb kül olduğunu görür və bu dərdə dözməyib atını və özünü öldürür. Bu süjetin oxşar variantını biz abxaz miflərində görürük. Hekayədə deyilir ki, ovçu bir gün açıq talada ağ maralla rastlaşır. Maral ona deyir: "Məni vur! Vura bilsən xoşbəxtlik tapacaqsan, vura bilməsən özün öləcəksən". Ovçu yaxın məsafədən nişan alır, amma maral yoxa çıxır. Ovçu evə gəlib arvadına maralı vura bilmədiyini və tezliklə öləcəyini söyləyir. Ovçu həmin axşam ölür (Вирсаладзе: 1976, s.34). Qafqaz xalqlarının ovçuluq inamlarında ağ maral ov tanrısı hesab olunur, burada isə qara maralın dağların ruhu olduğu söylənilir (Türk xalq.folk. s.21). Altay türklərində dağ əyəsi ov hamisi hesab olunur. Altay miflərində o, ya qız,qadın, ya da maral donunda təsvir olunur.

İnamlardan görünür ki, maralın nəinki ovlanması, hətta buna cəhd olunması da ovlayan adama bədbəxtlik gətirir. Ölönbirin oğlu Maday Qara ov ovlamaqda mahirdir. O, həm də qorxmaz, cəsarətli bir bahadırdı. Maday Qaranın təpəgözlə vuruşması səhnəsi KDQ dastanında Basatın təpəgözü öldürməsi hekayəsi ilə yaxından səsləşir. Süjetin qədimliyi etibarilə KDQ daha qədimdir və dünya xalqlarının folkloruna təsiri şübhəsizdir. Maday Qara təpəgözlə vuruşub onu öldürməyə çalışır, lakin təpəgöz olməzdir. Maday Qara onun canının (tınının) harda olduğunu soruşur. Təpəgöz:

- Çəkmənin altına bax, 9-cu qatda sarı saplı bıçaq var. O bıçağı çıxart, qarnımı yar. Mənim "köynəyimə" (qarın piyi) bürün, bağırsaqlarımı belinə bağla. Sənə güc lazımdır, gücün artacaq" – deyir.

Altay xalqlarının inamına görə sarı rəng ovçuluğun müqəddəs rəngidir. Sarı günəşin rəngi sayılırdı və sarı əşyalar, canlılar qutsallıq daşıyırdı. Türk xalqlarının ovçuluq inamlarında vəhşi heyvanın dərisinə bürünmək onun ruhuna girmək, gücünü mənimsəmək anlamında başa düşülürdü. Azərbaycan nağıl və hekayələrində Ovçu Pirimin oğlunun pələng, maral, ayı dərisinə bürünməsi, yaxud ovçunun dostunun vəhşi heyvan kürkünə bürünüb yatması süjeti bu inamla bağlıdır. Burada da təpəgözün "köynəyimə bürün" – deməsi bu inamın altay xalqlarında da olduğuna işarədir. KDQ dastanında olduğu kimi burada da təpəgöz hiyləgərdir, onun "köynəyi" sehirlidir və ancaq sahibinə məxsusdur. Maday Qara Basat kimi ağıllı tərpənir və köynəyi də, bağırsaqları da qara daşın və qovağın üstünə atır və ölümdən qurtulur. Dastanın bəzi motivləri (oğurlanmış gözlər, təpəgöz-div qarşılaşması) onu gürcülərin "Amiran" dastanı ilə yaxınlaşdırır. "Amiran"ın isə qədim türk eposu KDQ-dan təsirlənərək yaranmasına şübhə yoxdur. Maday Qaranın şər ruhları təmsil edən göy buğanı öldürməsi epizodu isə onu qədim şumer eposu "Bilqamıs"a yaxınlaşdırır. Dastanda ilanın yeraltı dünyanı təmsil etməsi, ayı dərisinin qəhrəmana güc-qüvvət verməsi türk ovçuluq inamlarının bir ünsürü kimi diqqəti cəlb edir.

Dastanda 9 rəqəmi tez-tez istifadə olunur: "9 qara öküz, 9 gözlü çoqur, 9 qatlı çuqun qala, 9 öküz dərisi, 99 düyməli zireh, 9 saplı bıçaq" və s. Şamanizmin müqəddəs sayı olan 9 ovçuluqda qəbul olunmuş uğurlu rəqəmdir, Altay ovçuları ov tanrısına qurban verərkən 9 rəqəmli əşyalardan istifadə etmişlər: ov tanrısı Şanıra, Tayqıma 9 arpa dənəsi qurban verib ondan ov istəyərdilər (Potapov). 99 rəqəmi altay əfsanələrindən dastanlara keçmiş sakral rəqəmdir. Altay yaradılış əfsanəsində yaşadığımız dünyadan əlavə 99 dünyanın olduğu bildirlir. Y.V.Çəmənzəminli 9 rəqəminin türk irqinə məxsus olduğunu göstərmişdir.

Ovçuluq inam və təsəvvürləri türkün baş dastanı "**Kitabi-Dədə Qorqud**" da kifayət qədər genişliyi ilə yer almışdır. Oğuz igidlərinin ən sevimli peşəsi ov ovlayıb, quş quşlamaqdır. İgidin ilk ovu mərasimlə, şənliklə qeyd olunardı. Oğuz igidlərindən Bamsı Beyrək öz deyiklisi Banıçiçəklə ov ovlarkən tanış olur. Onların tanış olma səhnəsi ovçuluq adət-ənənələri ilə müşayiət olunur. Beyrəyin ovladığı geyikdən Banıçiçək pay istəyir. Beyrək "həp sizə" – deyərək geyiyin hamısını onlara verir. Ovlama qaydalarına görə ovçu ovladığı heyvanın yalnız başını və dərisini götürür, qalan əti ovçu yoldaşları arasında bölür və ova gedərkən yolda qarşılaşdığı adama pay verir. Banıçiçəyin Beyrəkdən pay istəməsi təsadüfi epizod olmayıb ovçuluq ənənələrinə söykənir. İkinci tərəfdən, ov heyvanı geyik ilahi keyfiyyətlər daşıyan qutsal heyvandır, o, sevgililərin ilk tanışlığında əhəmiyyətli rol oynayır. Biz məhəbbət dastanlarında, nağıllarda şah qızının ceyran donunda meşədə gəzib dolaşması və şahzadənin onun ardınca düşüb ceyranı əldə etməsi süjetləri ilə rastlaşırıq. Geyiklə qarşılaşmaq şahzadənin həyatını dəyişir, belə demək mümkünsə, şahzadənin həyatı iki mərhələyə ayrılır: ova çıxana qədərki yetkinləşməyə doğru gedən həyatı və ova çıxandan sonrakı macəralar, qəhrəmanlıqlarla dolu həyatı. Əsas dönüş ikinci mərhələdə yaşanır.

KDQ-da ovlama qaydaları və üsulları ilə tanış oluruq. "Dəli Domrul" boyunda Əzrayılı ovlamağa çalışan Dəli Domrulun ova çıxma süjeti orta əsr ovçuluğuna məxsus qaydada təsvir olunur: "Durdu atına mindi, toğanın əlinə aldı, ardına düşdü. Bir-iki göyərçin öldürdü, döndü" (Az.əd.incil: 1987, s.98). Orta əsr ovçuluğu at üstündə, şahin ovçunun sağ qolunda icra olunurdu. Xalq inamlarında göyərçin öldürmək günah, yasaq hesab olunur. Göyərçin mələykələrlə, imamlarla, peyğəmbərlə əlaqələndirilir, bu səbəbdən Əzrayılın göyərçin donuna düşməsi təsadüfi deyil. Digər tərəfdən, ovun don, şəkildəyişməsi ovçuluq miflərində tez-tez rast gəlinir. Bu da şamanizmin qalıqları kimi dastana təsirini buraxmışdır. Şamanın cildini dəyişərək gah qartal, gah maral, gah ayı donuna girməsi və yeraltı dünyaya səyahət etməsi, ölmüş adamların ruhu ilə əlaqə yaratması türk xalqlarının şamançılıq dünyagörüşündən irəli gəlir və bunun bariz nümunəsi "Dədə Qorqud" dastanıdır.

Dastan və nağıllarda vəhşi heyvan himayəsində qalmaq, vəhşi heyvanın südüylə böyümək, əvvəldə deyildiyi kimi, alplığa, qəhrəmanlığa işarə idi. "Dədə Qorqud" dastanında gördüyümüz Basat, "Bilqamıs" da Enkidu belə qəhrəmanlardandır. Belə qəhrəmanlar adi, sıravi qəhrəmanlıq göstərmirlər, onların qüvvəsi cahanşümul, bəşəri xarakter daşıyır, onlar özlərindən qat-qat güclü, tilsimli vəhşini

ovlamaqla təhlükəli şər qüvvəni aradan götürmüş olurlar. Dastanda olan Dəpəgöz pəri oğludur. Dəpəgözün tilsimli, güclü olması anasının qeyri-insan tayfasına mənsubluğudur. Dəpəgözü öldürmək asan deyil, bütün Oğuz igidləri onun əlində məhv olur: "Oğuz Dəpəgözün əlində tamam zəbun oldu". Yalnız Basat Dəpəgözün bütün tilsimlərini sındırır və öldürür. Dünya xalqlarının mifologiyasında təkgözlü varlıqlar şər ruh hesab olunur, onlar həmişə insanların yolunda böyük maneə, can alan mifoloji varlıq kimi təsvir olunurlar. Məsələn, tatar mifologiyasında olan meşə hamisi Şurəli, çeçen miflərində olan ov hamisi Elt, taciklərin ov hamisi Qul belə mənfi varlıqlardandır (Коблов; Дирр, Сборник: 1915, s.7; Сказки и лег: 1990, s.54). Ümumiyyətlə, türk mifologiyasında fiziki görünüşü qüsurlu obrazlar (keçəl, kosa, çəpgöz, kor, çolaq və s.) şeytani, demonik varlıqlar hesab olunurlar. Araşdırıcılar bu varlıqların yeraltı dünyaya mənsub olduğunu bildirirlər (Kazımoğlu: 2006, s.81; Ögel: 2014, s.85). Şər ruhlar yeraltı tanrısı Erlikin əsgərləridir. Erlik uyğur mətnlərində, hind, İran mifologiyasında cin, şeytan kimi təsvir olunur(Çoruhlu: 2017, s.64). Pəri, cin, hal anası kimi varlıqların insanlarla izdivacından qeyri-adi güclü demonik varlıqlar doğulur, bunlar, əsasən, mənfi obrazlar şəklində qarşımıza çıxır, lakin türk dastanları içərisində müsbət obrazlara da rast gəlirik: Ediğe timsalında. İrəlidə bundan söhbət ediləcək.

"KDQ"-da ovçuluq motivlərinin yer aldığı hekayələrdən biri də "Bəkil oğlu Əmranın boyu" dur. Bu hekayə demək olar ki, tamamilə ovçuluq inamlarından qidalanmışdır. Burada Oğuz elinin qarovulçusu Bəkilin ovlama üsulu təsvir olunur: o, nə ox atır, nə yay, qan axıtmaz. Arıq heyvanları ovlamaz, qulağını dəlib buraxar[1], kök olanları ovlayar (Az. əd. incil: 1987, s.135). Onun ovlamaq məharətini layiqincə qiymətləndirmədiyinə görə Qazan xandan küsür. Ovçuluğun sirli qaydalarına görə ovçunun məharəti tərifləmməz o, quşu gözündən vuran ovçu olsa belə buna adi bir iş kimi baxmalı, tərif gözləməməlidir. Bu məsləkə tanrıçılıqla bağlı olduğuna görə bütün rituallarda bir həddə gözlənilir. Ovçular ova gizli gedib gələr, ovladığı heyvanı sərgiləməz, xudpəsəndliyə yol verməzlər. Bu baxımdan Qazan xanın Bəkilin məharətini özünə yox, atına bağlaması ovçuluq ənənələrindən gələn bir motiv olaraq burada yer almışdır. Bu epizoda Nizaminin "Xəmsə" sində də rast gəlirik. "Sirlər xəzinəsi" məsnəvisinə daxil olan "Fitnə" hekayəsində Fitnə Bəhram şahın ovçuluq məharətini tərifləmir və şahın ceyranın ayağını başına tikməsini ovlama vərdişinin nəticəsi olduğunu bildirir, şah da bundan inciyib ən çox sevdiyi kənizinin qətlinə fərman verir. Nizami "Xəmsə" ni xalq əfsanələrindən bəhrələnib yazmışdır. Bu hekayədə də o, xalqın ovçuluqla bağlı inamlarını motiv olaraq poemaya daxil etmişdir.

Qulağı dəlikli heyvan Altayda tanrı hədiyyəsi hesab olunurdu, ovçular belə heyvanı ovlamırdılar. Bu türk ovçuluğuna xas ritualin ümumtürk abidəsi KDQ-da verilməsi dastanın qədim ovçuluq ənənələri əsasında formalaşdığını göstərir.

Dastanda Bəkil bir neçə dəfə ov qaydalarını pozur və cəzasını da alır. İnama görə ovçu ovda olan hadisələri heç kimə, xüsusən arvadına deməməlidir. O, arvadının məsləhətini məqbul hesab edib ova çıxır, yaralı geyikin (buğanın) ardına düşüb ovlamaq istəyir, lakin buna nail ola bilmir, özü qayadan yıxılıb sağ ayağını

sındırır. Buradan göründüyü kimi yaralı geyikin ovlanması ovçuluq qaydalarına zidd hərəkətdir. Ovçular yaralı və ya hər hansı bir nöqsanı olan heyvanı ovlamazlar. Geyik, maral kimi heyvanlar ovçuluqda müqəddəs, totem hesab olunur, onların ovlanmasının ovçuya bədbəxtlik gətirəcəyinə inanırdılar, bu baxımdan dastana bu süjetin salınması tamamilə ovçuluq inam və təsəvvürlərinin mifoloji təfəkküründə kök salmasından irəli gəlir. Bəkilin düşmənə əsir düşməyinin səbəbi yenə onun arvadına ovda olan sirri açmasıdır. Belə ki, o, ovda ayağını sındırdığını arvadına söyləyir, arvadı qaravaşa, qaravaş qapıçıya, qapıçı da qabağına kim çıxsa. "Otuz iki dişdən çıxan bütün orduya yayıldı" (Az.əd.incil: 1987, s.137). Düşmənlər Bəkilin yaralı olmasından istifadə edib onun üstünə hücum çəkirlər. Bəkilin başına gələn bütün bəlalar ov qaydalarını pozmasına görədir. Folklorşünas Bayat M.Seyidova instinadən Bəkilin ov hamisi rolunda olmasını qeyd edir (Bayat: 2016, s.204). Lakin ov qaydalarına əməl etmədiyinə və ov ənənələrinin əksinə getdiyinə görə Bəkili nə ov hamisi, nə də geyiklərin qoruyucusu hesab etmək olmaz. Azərbaycan uşaq folklorunda yer alan "Əkil-Bəkil" oyununda Bəkilin unudulmuş ov hamısının yerində olduğu göstərilir, amma bunu da təsdiq edəcək miflər, hekayələr olmadığına görə Azərbaycan folklorunda ov hamisinin adı məchul olaraq qalmaqdadır.

Orta əsr adətlərinə görə hökmdarlar, xanlar bir-birinə ov heyvanının dərisini, ov quşları hədiyyə edərdilər. Bu, ən qiymətli hədiyyə sayılırdı. Məsələn, Çingiz xanın Toğrul xana qara samur xəzi verməsi məlumdur. Osmanlı padşahları və Qızıl Orda xanları bir-birinə ov quşları hədiyyə edərdilər. Bu ənənə Azərbaycanda da olmuşdur, Elxani hökmdarları Məmlük sultanlarına ov quşları hədiyyə edərdilər və alardılar (Av ve avcılık: 2008, s.51). Biz bu ənənəni KDQ dastanında da görürük. Burada Trabzon təkurunun Qazan xana şahin göndərməyindən danışılır (Az.əd.incil: 1987, s.152). Hekayədən məlum olur ki, Qazan xanın sarayında şahinlərə baxan şahinçibaşı vəzifəsi olmuşdur. O dövrün hökmdarlarının sarayında quşçu, şahinçi, bazban xüsusi imtiyazlı yüksək vəzifələrdən sayılırdı. Onlar ov quşlarını təlim edib saxlayırdılar, ov vaxtı şahla birgə ova çıxırdılar. Dastanda Qazan xan şahinçibaşına deyir: "Mərə, sabah şahinləri al, xəlvətcə ava minəlim". Qazan xan - xəlvətcə ava minəlim – deyərkən ova getməsinin gizli saxlanmasını istəməsidir. Ovçuluq inamlarına görə ovçunun ova getməsi gizli olmalıdır, onu heç kim bilməməlidir. İnanca görə, ov səfərindən kimsə xəbər tutarsa bu, ovun uğursuz olacağı mənasına gəlirdi. Bütün türk xalqlarında bu inam qorunub saxlanmışdır.

KDQ- la yaxından səsləşən "**Oğuz xaqan**" dastanı da ovçuluq motivləri ilə zəngin dastanlardandır. "Oğuz xaqan" dastanı türk ovçusunun həyatı, məşğuliyyəti, ov adət-ənənələri haqqında qiymətli mənbədir. Oğuz xaqan ovlamağı sevən, qəhrəman türk hökmdarıdır. Onun görünüşü vəhşi heyvan görünüşündədir: ayağı öküz, beli qurd, köksü ayı, çiyni samur kimi, bədəni isə başdan ayağa qədər tüklüdür. Türk mifologiyasında qeyri-adi güclü qəhrəmanlar tüklü, saçlı təsvir olunur. Enkidu, Oğuz, Basat, Koroğlu (qaqauz variantı) anadan tüklü doğulmuş misilsiz güc sahibidirlər.

Rəşidəddinin verdiyi məlumata görə bir çox türk xalqlarının adını Oğuz xaqan vermişdir. Məsələn, "moval" adını verdiyi tayfanı yoxsul və xəstə, kədərli ol-

duğuna görə belə adlandırmış və onlara "it dərisinə bürünün, ov əti yeyin və heç vaxt Türküstana ayaq basmayın" demişdi (Oğuznamə: 1992, s. 13). Rəşidəddin bununla monqolların türklərdən fərqli sivilizasiyadan uzaq, vəhşi həyatı sürdüyünü diqqətə çəkmişdir. Ə.Əsgər bu məsələyə aydınlıq gətirərək Oğuznamədə moğol adının keçməyini monqol işğalları ilə əlaqələndirir və bütpərəst monqolların müsəlman Oğuza düşmən olması səbəbindən oğuz yurdu Türküstana ayaq basmamasını əmr etdiyini göstərir (Əsgər: 2013, s.81). Yəni dastanda dini ayrıseçkiliyə işarə edilsə də əsil səbəb monqolların türk torpaqlarını tutması ilə əlaqədardır.

Oğuz xaqanın oğlu Ulduz xanın oğlanlarından biri Avşar adlanırdı, bu da çevik, ovçuluğu sevən mənasını daşıyırdı. Avşarlar tayfası Azərbaycan tarixində əhəmiyyətli rol oynamış, bu tayfadan görkəmli şəxsiyyətlər çıxmışdır. Bunlardan biri türk fatehi Azərbaycan hökmdarı Nadir şah Əfşar idi ki, hakimiyyəti irsən yox, şəxsi bacarığı ilə əldə etmişdi. Oğuz xaqan nəslindən olan Kayı İnal xanın oğlu Tuman xan heyvanların dilini bilən ovçudur. Onun atası Ala Atlı Keş Dernekli Kayı İnal xan (ala ata minmiş və samurdan paltar geymiş mənasını ifadə edən bu ad türk ovçuluq ənənələrindən törəmiş kəlmədir. Araşdırıcılar atçılıq, ovçuluq və qarətçiliyin əski türk həyatının təməlini təşkil etdiyini qeyd edirlər) bütün həyatı boyu ov ovlayıb və ovladığı heyvanların dilini kəsib bir qutuda saxlayırmış. İnal xan ölməzdən qabaq vəsiyyət edib ki, oğlu olarsa, saxladığı dilləri ona versinlər, heyvanların dilini bilsin (Oğuznamə: 1992, s.43). Burada heyvanların dilini kəsmək simvolik mənada işlənmişdir. "Oğuznamə" də verilən bu süjet Azərbaycan nağıl və əfsanələrində başqa variantda qarşımıza çıxır. Ovçu Pirim nağıllarında Ovçu Pirim bütün heyvanların və quşların dilini bilən ovçu kimi göstərilir. Ona bu qabiliyyət ilanlar padşahının ovçunun ağzına tüpürməklə verdiyi mükafat sayəsində mümkün olmuşdur. Azərbaycan nağıl və əfsanələrində Ovçu Pirimdən başqa Süleyman peyğəmbərin də bütün canlıların dilini bilən ovçu olması göstərilir. O, bütün dünyanın hökmdarıdır, ovçudur, bu obraz Şərq nağıllarından Azərbaycan folkloruna keçmiş, milliləşmişdir.

Azərbaycan folklorunda Tumanxan – Ovçu Pirim obrazları bir-birinə yaxındır. Tuman xan obrazının yaradılmasında xalq əfsanə və nağıllarından istifadə olunması şübhəsizdir. Tuman xanla bağlı "Oğuznamə" də verilmiş "Qara Barak" əhvalatının oxşar variantı Zəngəzur folklorunda qarşımıza çıxır. Demək olar ki, eyni süjet Zəngəzur folklorunda qəhrəmanların adı dəyişməklə verilmişdir (Oğuznamə: 1992, s. 44; AFA Zəngəzur f: 2005, s. 171). Qeyd etmək lazımdır ki, Ovçu Pirim Azərbaycan nağıllarında təkcə ovçu yox, həm də peyğəmbər, övliya, sufidərviş sifətilə xalqa yardım edən, ədalətli, insaflı seçilmiş insan obrazıdır.

"Oğuznamə" də biz təkcə mif və əfsanələrdə yaşayan ovçuluq ənənələri ilə yox, həm də ovçuluğun dövlət səviyyəsində qiymətləndirildiyini müşahidə edirik. Belə ki, burada Toksurmuş İçi adlı çadır düzəldən ustanın bacarıqlı, qabiliyyətli üç oğlu ovda məharətli olduqlarına görə oğuz bəyləri onları ov əmiri (əmiri-şikar) təyin edir (Oğuznamə: 1992, s.57). Bu vəzifə o dövr üçün böyük qulluq demək idi və belə adamlar dövlət başçısının yaxın adamları hesab olunurdu. Şaha yaxın olub ondan idarəçilik, hökmranlıq qayda-qanunlarını öyrənən Toğrul bəy sonradan

oğuz bəylərinin əmiri, başçısı olur. "Oğuz xaqan" dastanında qartal, şahin kimi ov quşları onqon (xobəxtlik və dövlət simvolu) sayılmışdır. Məsələn, Kayı boyunun onqonu şonqar, Bayat boyunun onqonu bayquş, Yapar boyunun qırğı, Avşar boyunun laçın, Kızık boyunun qartal, Beçene boyunun qaya qartalı, Çavuldur boyunun buğdayıq (ən iri qartal), Cəbni boyunun Humay quşu, Salur boyunun bürküt, Bügdüz boyunun itəlgü və s. (Ögəl I c: 2014, s.386). Bu quşların demək olar ki, hamısı qartal cinsidir. Humay quşu folklorda əfsanəvi quş sayılır, amma dövrümüzdə qartal cinslərindən biri humay adlanır. Tədqiqatçıların haqlı olaraq qeyd etdiyi kimi, dövrün tələbinə uyğun olaraq "Oğuznamə" və "Kitabi-Dədə Qorqud" da əski türk köçəri həyatına uymayan ərəb-fars hekayələri qarışdırılmış, dastanların da taleyi onları yaradan xalqın taleyi kimi dəyişdirilmişdir, amma bütün bunlara baxmayaraq türk ovçuluğunu əks etdirməsi baxımından hər ikisi dəyərli mənbədir.

"Ediğe" dastanı da türk dastanları içərisində ov motivlərinin zənginliyi ilə seçilir. Dastan quruluşuna görə orta əsr ənənəsinə uyğun süjetə malikdir. Dastanın bəzi səhnələri KDQ la oxşardır, hətta hər ikisinin eyni vaxtda yarandığını deyə bilərik. Dastanda adı çəkilən Teymur, Toxtamış XIII əsrin real şəxsləri – türk hökmdarları olmuşlar. Dastanda qəhrəman Ediğenin Teymura rəğbəti, Toxtamışa düşmən münasibəti hiss olunur, bu da dastanın Teymur hakimiyyətinə yaxın türk tayfaları içərisində yarandığını deməyə əsas verir. Burada olan ov adətlərinin təsviri orta əsr ovçuluğunu əks etdirir. Ediğenin doğuluşu möcüzəlidir. Yəni o da Manas kimi tanrı elçisinin köməyilə dünyaya gəlmişdir. Tanrı tərəfindən göndərilmiş adam Qaya bəyin evinə gəlib ev sahibi üçün qızardılmış dovşanı yeyir. Qaya bəy arvadından dovşan ətini istədikdə arvadı qonağa verdiyini bildirir. Qaya bəy və arvadı dovşanın sümükləri yığılmış qabı açanda dovşanın əvvəlki kimi bütöv şəkildə qabda durduğunu görürlər və bundan sonra elçinin övliya olduğunu bilib ondan övlad istəyirlər. Bu motiv ovçuluqda yer alan sümüklərdən dirilmə inamını əks etdirir. Türk xalqlarında, o cümlədən Azərbaycanda yeyilən heyvanın yenidən diriləcəyinə inanır və yeyildikdən sonra sümüklərini basdırırdılar. "Ediğe" dastanında dovşanın dirilməsindən danışılmır, lakin sümüklərdən dovşanın əvvəlki vəziyyətinə qayıtması eyni inamın başqa formada təzahürüdür. Övliya Qaya bəyə alma verib dua edir. Onun verdiyi almadan qəhrəman Ediğe doğulur. Lakin Ediğe doğulana qədər Qaya bəyə bədbəxtlik üz verir. Belə ki,o, şahinlə ova çıxarkən Toxtamış xana rast gəlir və onun torpaqlarında izinsiz ov ovladığına görə xan onun gözünü çıxardır. Kor olduğuna görə Qaya bəyin arvadı onu atır və uçub cinlər ölkəsinə gedir. Dastanda onun pəri qızı olduğu göstərilir. O, Ediğeni göl sahilində doğur. Burada Ediğenin doğulması təpəgözün dünyaya gəlməsi səhnəsini xatırladır. Ovçu ilə pəri qızının izdivacından qeyri-adi qüvvətli və ağıllı pəhləvan Ediğe doğulur. Burada yunan və türk dastanlarında rast gəldiyimiz su əyəsinin güclü varlığın doğuluşunda görünmədən vasitəçi olduğu bəlli olur. B.Ögəl şər ruhların göl və su qaynağı olan yerlərlə təmasda olduğunu və pərilərin göl başında doğduğunu göstərir (Ögəl I c: 2014, s.458). R.Qafarlı mifik dünya modelinin dörd ünsründən bəhs edərkən od və havanı təmsil edən kişini müsbət, su və torpağı təmsil edən qadını isə mənfi başlanğıc kimi götürmüşdür (Qafarlı I

c: 2015, s.209). Belə olduğu təqdirdə qadın sudan güc alaraq dünyaya qeyri-adi güclü varlıq gətirir. Pərilər də cin, şeytan, ərdo kimi şər ruh hesab olunur və onların insanlarla izdivacından adətən şər qüvvəli qəhrəmanlar doğulur. Lakin "Ediğe" dastanında təpəgözdən fərqli olaraq qəhrəman xeyirxah ruhlu bahadırdır, yəni Ediğe təpəgöz kimi doğulsa da Basat və Odissey kimi xalqına, ailəsinə dayaq duran, düşmənləri basan, əzən yenilməz türk cəngavəridir. "Ediğe" və "Odissey" arasında həm ad (Ediğe – Edigey- Odissey), həm də süjet oxşarlığı diqqətçəkicidir. Şübhə yoxdur ki, "Odissey" dastanı "KDQ" və "Ediğe"dən sonra yaranmış və türk mifologiyası daha qədim olduğuna görə başqa xalqlar, o cümlədən yunanlar ondan yararlanmışlar.

Dastanda Ediğenin qəhrəmanlıqları sırasında iki qorxunc əjdahanı öldürməsi və Şah Temirin qızını qaçıran Şah Mütalibi məğlub etməsi nağıl olunur. "Odissey" dastanında da biz Odisseyin iki qorxunc əjdaha (Ssıla və Qarqona) ilə qarşılaşması və onları məğlub etməsini görürük. Əjdaha ovlamaq qəhrəmanın fövqəladə sonsuz qüvvəsini bildirmək üçün yaradılmış motivdir. Tədqiqatçıların fikrincə, əjdaha öldürülməsi motivi şumer mədəniyyətindən qaynaqlanır (Çoruhlu: 2017, s.242). Əjdahalar da mənfi mifoloji varlıqlar kimi su ilə əlaqəli obrazdır. Həm türk, həm də dünya xalqlarının ədəbiyatında, folklorunda əjdahanın kosmoloji, suyun, ayın, günəşin qabağını kəsən mifoloji varlıq olduğu bildirilir (Ocak: 2000, s.212). Şah Mutalib obrazı dastanda mənfi, div, təpəgöz ruhlu düşmən kimi verilir. Şah Mutalib də Ediğenin ovudur. Mutalib təpəgöz kimi qüvvətli və tilsimlidir. Onu öldürmək mümkün deyil. Yalnız təpəgöz kimi onun da zəif nöqtəsi var, o da qoltuğunun altıdır. Ediğe də onu məhz bu yolla məğlub edib qızı ondan alır. Qəhrəmanlıq dastanlarının ovçuluq motivlərindən danışarkən "**Koroğlu**"dan yan keçmək olmaz. Koroğlu igidlikdə, bahadırlıqda yuxarıda adı çəkilən qəhrəmanlardan geri qalmır, dastançı onun və Qıratın cəldliyini, igidliyini alıcı quşla müqayisə edir, Koroğlunu qızılquşa, tərlana bənzədir. Koroğlu özü də igidlərini döyüşə ruhlandırmaq istəyəndə ovçu quşlara bənzətmə şəklində çağırış edir:

Mərd iyidlər nərə çəksin davada,
Şahin kimi şikar tutsun yuvada,
Misri qılınc coylan vursun havada,
Bağırsaq cəmdəyə dolanmaq gərəy! (Az.əd.incil: 1987, s.366).

Dastanın başqa bir hekayəsi "Koroğlunun Bağdad səfəri" adlanan hissəsində ovçuluq ənənələri və inamları ilə rastlaşırıq. Burada dəlilərin durna teli gətirməsi üçün Bağdada getmələrindən və orada düşmənə əsir düşmələrindən danışılır. Dastanda durnaları qırıb çatan, ətindən kabab çəkib yeyən dəlilərin yatması və Bağdad paşası Aslan paşaya əsir düşməsindən danışılır. Düşmən əlindən onları Koroğlu və Giziroğlu Mustafabəy qurtarır (Az.əd.incil: 1987, s.369).

Durna xalq inamlarında ovlanması yasaq müqəddəs quşlardan sayılır. Durna quşu ilə bağlı təsəvvürlər proto-türk dövrünə qədər uzanır. Durnanın islamdan əvvəl türklər arasında tanrı və qoruyucu ruh olduğu mənbələrdə bildirilir (Elçin: 1997, s.65). Bu inanclar sonradan islama da keçmiş, türk dastanlarında əski dini təsəvvürlərlə qarışmışdır. İslamda və təsəvvüfdə durna müqəddəs şəxslərlə əlaqə-

ləndirlir. Əli bin Əbu Talib, Əhməd Yasəvi sufi müridlərinin gözünə durna donunda görünməsi haqqında inamlar var. Qızılbaş ozanı Pir Sultan Abdalın bu mənada yazdığı şeiri diqqətəlayiqdir:

Hazret-şahın avazı,
Turna derlər bir kuştadır.
Asası Nil deryasında
Hırkası bir dervıştedir (Melikof: 1993, s.109).

Azərbaycan sufi şairi Xətainin də bu mövzuda şeiri olduğu qeyd olunur (Elçin: 1997, s.73). Şiə sufiləri şah deyərkən Əli Bin Əbu Talibi nəzərdə tutmuşlar və onun ruhunun durnanın bədənində təcəlli etdiyinə inanırdılar. Bu baxımdan durna ovlanmayan, əti yeyilməyən quşlardan hesab olunur. Anadolu bölgəsində durna ovlayan ovçuların bədbəxtliyə düçar olması və dəli olması haqqında hekayələr qeydə alınmışdır (Elçin: 1997, s.66).

Durna Azərbaycan ədəbiyyatında həsrət, nisgil simvolu hesab olunur. Azərbaycan şairləri Vaqifin, Vidadinin, Zakirin, dastan qəhrəmanlarından Koroğlunun, Kərəmin durnalara xitabən qoşduğu şeirlər xalq arasında məşhurdur.

"Koroğlu" dastanında igidlərin papağına durna teli sancması təsvir olunur. Bu ənənə orta əsrlərdə bahadırlıq, qəhrəmanlıq timsalı hesab olunurdu. Tədqiqatçılar quş tükünün hakimiyyət, alplıq, güc-qüvvət, cəsarət, bərəkət, uğur anlamında işləndiyini qeyd edirlər (Elçin: 1997, s.65). Orta əsrlərə məxsus dəbilqəsinə durna teli sancmış türk döyüşçü geyimlərində bunu açıqca görmək mümkündür. Mahmud Kaşğarlı "Divani-lüğət it türk" əsərinin Uyğur maddəsində Zülqərneynin uyğur ölkəsinə səfər etməsindən danışaraq türk xaqanının İskəndərin hüzuruna dəbilqəsinə şahin qanadları taxılmış dörd min adam göndərdiyini və bu adamların həm qabağa, həm də arxaya ox atdıqlarını söyləyir. Zülqərneyn onların məharətini alqışlamış və "bunlar başqasının yeməyinə möhtac olmazlar, çünki, bunların əlindən ov qurtulmaz..." demişdir (Sakaoğlu: 2013, s.203).

"Koroğlunun Bəyazid səfəri" adlı hekayədə Koroğlunun dəlilərinin Bayazıda gedib Xəlil paşanın əl ceyranlarını ovlamasından danışılır. Onlar ovlama qaydalarını pozub ceyanları qırıb tükədirlər. Burada da düşmənə əsir düşən dəliləri Koroğlu və silahdaşları qurtarır (Az.əd.incil: 1987, s.387). Ceyran və maral əti yeyilən ov heyvanlarıdır, lakin onların ovlanmasında qadağalar və həddgözlənilməlidir. Ceyran uyğur mətnlərində tanrının timsalı sayılır. Təsəvvüflə bağlı mətnlərdə də ceyranın totem olduğunu görürük, sufi şeyxlərinin öləndən sonra ceyran, maral donunda dolaşdığı bildirilir. "Koroğlu" dastanında totem sayılan quş və heyvanların ovlama qaydalarına zidd şəkildə ovlanması və onları ovlayan igidlərin ölümlə üz-üzə gəlməsi xalq inamlarının dastanda bədii ifadəsidir.

Ovçuluq motivləri ilə zəngin daha bir türk dastanı "**Manas**" dır. "Manas"-ın bir çox süjetləri KDQ və "Oğuznamə" yə yaxındır. "Manas" Oğuz xaqan kimi uşaqlıqdan fövqəladə gücə malik pəhləvandır. Uşaqlıqdan çöllərdə, meşələrdə təkbaşına dolaşır, qurd, tülkü, mavi tülkü ovlayır. Manasın doğuluşu da adi doğulma deyil, ilahinin köməyilə, rizası ilə talenin zərurətindən meydana çıxmış hadisədir. Tanrı ərənləri, dərvişləri övladı olmayan kişilərə elçi olaraq göndərir və onların

vasitəsilə doğulan uşaqlar ya haqq aşığı oldur, ya da xalqı zülmətdən qurtaran bahadır. Bu ənənə türk xalqlarının hamısında olmuş, dastanlara, o cümlədən qırğız dastanı "Manas"da da süjetə salınmışdır. Manas da Oğuz xaqan kimi görünüşü vəhşi heyvan görkəmindədir, o, aslan boyunlu, qaplan heybətli təsvir olunur. Manasın qoruyucu onqon quşu Alp Qaraquşdur (Manas: 2009, s.55). Mifologiyada qaraquş qartalla qarğanın birləşməsindən doğulan nəhəng quş kimi təsvir olunur. Dastanda olan ovçuluq inamları ümumtürk düşüncəsinin təzahürüdür. Məsələn, burada sağsağan xəbər verən quş kimi göstərilir. Qırğızların qəddar düşməni Qara Kitay xanı Esen xan Manasın ata-baba yurdunu işğal edib xalqını sürgün edir və bunu ilk xəbər verən sağsağan quşudur. Sağsağanın (qəcələ) xəbərçi quş olması Azərbaycan xalq inamlarında da öz əksini tapmışdır. Qəcələ kiminsə həyətinə qonanda onun xəbər gətirməsinə inanırlar və xəbərin xeyir xəbər olması üçün ona "yağlı bağırsaq" pay verilməsi haqqında nəğmə oxuyurlar (Qədirzadə: 2006, s.65).

Manasın anası Çıyırdı hamiləykən aslan ürəyi və ciyərini bişirib yeyir. Xalq inamlarına görə güclü heyvanın iç orqanını yemək həmin heyvanın gücünü mənimsəməyə işarədir. Adətən, qorxmaz, ürəkli adama "qurd ürəyi yemisən?" ifadəsi söylənir ki, bu da qorxmazlığın daxildən gəldiyini bildirən aforizmdir. "Manas" dastanında da biz hökmdarlara verilən hədiyyələr içərisində qızıl, gümüşlə yanaşı pələng, qaplan dərisi hədiyyə verildiyini müşahidə edirik (Manas: 2009, s.18). Ticarət əlaqələrində qırğızların maral buynuzu, qunduz, su samuru xəzi ilə alver etdiklərini dastandan öyrənə bilirik. Ovçuluq təsərrüfatının inkişafında Orta Asiya türkləri irəli getmiş və ov heyvanlarından pul dövriyyəsində istifadə etmişlər. Dastanda şamançı dünyagörüşün təzahürü olan şəkildəyişmə motivi ilə rastlaşırıq. Şəkildəyişməni nağıl, əfsanə, mif və əsatirlərlə yanaşı dastanlarda da müşahidə edilir. "Manas" dastanında Azərbaycan məhəbbət dastanlarında rast gəldiyimiz ceyranın gözəl qız donunda qəhrəmanla qarşılaşması motivinin variantı təsvir olunmuşdur: Manasın dostu Almambetin qovduğu cüyür donunu dəyişərək insan olur və atlılara qoşulur. Bu atlılar tanrı elçiləri qırx ərənlərdir. Onlar özünü Almambetə belə təqdim edir: "Biz qırxlarıq. Türkün, qırğızın həqiqi bahadırlarını qoruyan pirlərik. Tanrının əmri ilə sənə xeyirli birliyi anlatmaq üçün gəldik" (Manas: 2009, s.131). Buradan göründüyü kimi ceyran və cüyür obrazının dastanda verilməsi təsadüfi yox, hadisələrin zərurətindən doğan haldır, yəni heyvan donunda qəhrəmanın gözünə görünən və onu ardınca gəlməyə məcbur edən obyekt, əslində ya tanrının özüdür, yada Onun əmrinə tabe olan ruhlardır. Burada Almambetə doğru yol göstərən cüyür qırxlardan biridir, o qırxlar ki, hamının gözünə görünmür, yalnız Manasın və Almambetin köməyinə gəlir, onlara öndərlik edir.

Nəticə. Türk dastanları ovçuluq qayda-qanunlarını, təsəvvürlərini əks etdirməsi baxımından zəngindir. Əski türk dastanlarına nəzər yetirsək burada həm şamanizm, buddizm, həm də islami elementlərin olduğunu müşahidə edirik. Şumer dövründən başlamış orta əsr dastançılığına qədər türkün ova, ov tanrısına, özünə və ailəsinə münasibətini ovçuluq inam və təsəvvürlərindən öyrənə bilirik. Ovçu-ov, ovçu-meşə hamisi, ov tanrısı, ona veilən qurbanlar, kult heyvanlar, ov heyvanının dərisinə bürünmə, mifoloji şər varlıqların ovlanması, ov heyvanının şəkil də-

yişməsi, sakral rəqəmlər, qadınlarla bağlı inanaclar və s. insan övladının ovçuluq haqqında ilkin təsəvvürləri kimi motivləşərək dastana daxil olmuşdur. Onqon və totem quşlar, ovun pay verilməsi, ov dərisinin, ov quşlarının hədiyyə verilməsi, ov mərasim və ritualları, orta ərs ovçuluğuna məxsus ovlama qaydaları, islami elementlərin ov süjetlərinə daxil edilməsi (göyərçin donunda məleykə, cüyür donunda qırxlar) və s. orta əsr ovçuluğunun göstəriciləridir. Ümumiləşmiş formada adları keçən dastanları qısaca belə xarakterizə etmək olar:

1. İlkin ovçuluq inancları, ritualları və orta əsr ovçuluğuna xas motivlərin yer aldığı dastanlar(KDQ, Oğuz xaqan, Ediğe, Manas, Koroğlu)

2. Mifoloji təfəkkürdən doğan ovçuluq motivlərinin yer aldığı dastanlar (Bilqamıs, Maday Qara).

Vəhşi heyvandan güc alan yenilməz, fövqəladə qəhrəmanlar:

Enkidu (Bilqamıs), Basat (KDQ), Manas (Manas), Koroğlu (Koroğlu) (türkmən və qaqauz variantı).

Şər qüvvəli güclü məxluqların ovçuları:

Basat (KDQ), Maday Qara (Maday Qara) , Enkidu və Bilqamıs (Bilqamıs), Oğuz xaqan
(Oğuz xaqan) (uyğur variantı), Ediğe (Ediğe).

Tanrının cəzalandırdığı ovçular:

Enkidu (Bilqamıs), Ölönbir (Maday Qara), Bəkil (KDQ), Dəli Domrul (KDQ), Koroğlunun dəliləri (Koroğlu).

Mövzu obyekti seçilmiş dastanlarda rast gəlinən ovçuluq inam və ritualları:

1. Oğuz yurdunda ov mərasimlə qeyd olunur
2. Ov ovlama qaydaları əsasında ovlanır.
3. Ova gizlin gedilir, ovda olan hadisə ovçunun arvadına söylənməz.
4. Ovçunun məharəti tərifləmməz
5. Ov hamisi meşəni və heyvanları qoruyur, ovçunun ov həddini aşmasına imkan vermir.
6. Ov tanrısının şərəfinə qurban verilir.
7. Ovçular ovladığı heyvanın dərisinə bürünürlər
8. Kult heyvan və quşlar, yaralı, arıq heyvanlar ovlanmaz.
9. Ov heyvanının əti paylanar.
10. Ov heyvanının tükü alplıq, hakimiyyət, bərəkət, uğur rəmzi sayılır.
11. Sümüklərdən dirilmə inancı.
12. Ov heyvanının şəkil dəyişməsi
13. Ov ovlayarkən ovçuluqda qəbul olunmuş rəqəm və rənglərin qutsallığına inam.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar. Bakı, Yazıçı, 1987, 571 s.
2. Ağasıoğlu Firidun. Doqquz Bitik. Azərbaycan türklərinin islamaqədər tarixi. I Bitik. Tarixi qaynaqlar. Bakı, Ağrıdağ, 2014, 364 s.
3. Av ve Avcılık Kitabı. İstanbul, 2008, 707 s.
4. AFA. Zəngəzur folkloru. XII kitab. Bakı, Səda, 2005,464 s.

5. Bayat Füzuli. Türk mitolojik sistemi. 2-ci cilt. İstanbul. 2016, *
6. Çoruhlu Y. Türk mitolojisinin ana hatları. Kabalcı Yayıncılık, 2017. İstanbul, 309 s.
7. Dədə Qorqud. AMEA Folklor İnstitutu. Elmi ədəbi toplu. I (62). Bakı, 2018.
8. Дирръ. А.М. Божества охоты и охотничий языкъ у кавказцевь. Сборник материалов для описания местностей и племен Кавказа. Вып. 44. Тифлис, 1915. Отд. IV. С.7
9. Elçin Şükrü. Halk edebiyatı araştırmaları. Ankara, 1997, 521 s.
10. Əsgər Əfzələddin. Oğuznamə yaradıcılığı. Bakı, Elm və təhsil, 2013, 340 s.
11. Qafarlı Ramazan. Mifologiya. 6 cilddə. I cild. Mifogenez: rekonstruksiya, struktur, poetika. Bakı, Elm və təhsil, 2015, 454 s.
12. Qarabağ: folklor da bir tarixdir. III kitab. Bakı, 2012, 468 s.
13. Qədim Şərq ədəbiyyatı. Azərbaycan ensiklopediyası NPB. Bakı, 1999, 584 s
14. Qədirzadə Türkan. İslamaqədərki adətlər, inamlar və mərasimlər (Naxçıvan materialları əsasında) Bakı, 2006, 120 s.
15. Kazımoğlu Muxtar. Xalq gülüşünün poetikası. Bakı, Elm, 2006
16. Коблов Я. Мифология казанских татар 1910 http://saban-tuy.ru/txt/%D0%B2.pdf
17. Manas. Bakı, Nurlan, 2009, 290 s.
18. Melikoff İrene. Uyur idik uyardılar. Alevilik-Bektaşilik Araştırmaları. İstanbul, 1993, 288 s.
19. Oğuznamə. Bakı, 1992
20. Ocak Ahmet Yaşar. Alevi ve Bektaşi İnançlarının İslam Öncesi Temelleri. İstanbul,2000. 274 s.
21. Ögel Bahaeddin. Türk mitolojisi. I cilt. Türk tarih kurumu. Ankara, 2014, 778 s.
22. Potapov. Altay türklərinin ovçu inancları və gelenekleri. Int.
23. Rzayev Zakir. Naxçıvan abidələrində günəşlə bağlı təsvirlər. S.72 AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2006, № 2, 262 s.
24. Sakaoğlu S. A. Duymaz. İslamiyet öncesi türk dastanları. İstanbul, Eylül, 2013, 256 s.
25. Сказки и легенды горных таджиков. Москва, Наука, 1990, 238 с.
26. Şəki Folklor Örnəkləri. II kitab. Bakı, Elm və təhsi, 2014, 408 s.
27. Şərur folklor örnəkləri I kitab. Bakı, Elm və təhsil, 2016, 348 s.
28. Türk xalqları folkloru. IV kitab. Altay dastanları və əfsanələri.İnt .
29. Вирсаладзе Е.Б. Грузинский охотничий миф и поэзия. Москва. 1976, 345 s